## Əmək müqavilələrinin rəsmiləşdirilməsinə nəzarət gücləndirilir

Respublikada əmək bazarına nəzarətin daha da gücləndirilməsi, işəgötürənlər tərəfindən iş yerlərinin rəsmiləşdirilməməsi hallarının qarşısının alınması, bu sahədə məlumatlandırma və təbliğat işinin aparılması məqsədilə Vergilər Nazirliyində yaradılmış Qərargahın avqust ayının 2-də geniş tərkibli iclası keçirilmişdir. Nazirliyin və onun ərazi vergi idarələrinin rəhbərlərinin iştirakı ilə keçirilən iclasda bu sahədə görülən tədbirlər geniş müzakirə olunmuş, qarşıda duran vəzifələr müəyyənləşdirilmişdir.

Tədbiri giriş sözü ilə açan vergilər nazirinin birinci müavini Natiq Əmirov ölkə başçısının müəyyənləşdirdiyi vəzifələrə uyğun olaraq Vergilər Nazirliyinin əmək münasibətlərinin rəsmiləşdirilməsinə nəzarəti daha da gücləndirdiyini, yaradılmış Qərargahın bu sahədə intensiv işlədiyini bildirmişdir: «Ölkə başçısının bununla bağlı ciddi siyasi iradəsi var. 2012-ci ilin altı aylıq yekunlarına həsr olunmuş iclasında Prezident İlham Əliyev birmənalı şəkildə bildirmişdir ki, əmək müqavilələrinin bağlanması və əməkhaqlarının rəsmiləşdirilməsi üzrə işlər tam şəffaf, qanuni olmalıdır. Həqiqətən də bu sahədə ciddi problemlər mövcuddur. Bir sıra məsuliyyətsiz işəgötürənlər vergilərdən yayınmaq üçün işçiləri ilə əmək müqaviləsi imzalamaqda maraqlı deyillər. Vergi orqanlarının əməkdaşları belələrinə qarşı prinsipial və güzəştsiz mövqe nümayiş etdirməlidirlər. İctimai iaşə, ticarət və turizm sahəsində iş yerlərinin rəsmiləşdirilməsi ilə bağlı vəziyyət daha acınacaqlıdır».

Qeyd olunmuşdur ki, Qərargah mövcud nöqsanların aradan qaldırılması məqsədi ilə fəaliyyətini digər dövlət qurumları ilə də əlaqələndirir, tədbirlərin əlaqələndirilmiş şəkildə reallaşdırılmasına çalışır. Bakıda və yerlərdə aparılan işin nəticəsi olaraq, indiyədək 45 minə yaxın iş yerinin rəsmiləşdirildiyini deyən nazirin birinci müavini riskli vergi ödəyicilərinin əhatə dairəsinin müəyyənləşdirilməsi istiqamətində tədbirlərin davam etdirildiyini vurğulamışdır. Bəzi ərazi vergi idarələrinin bu istiqamətdə apardığı işin qənaətbəxş səviyyədə olmadığını diqqətə çatdıran Natiq Əmirov onları qarşıya qoyulmuş tapşırıqların icrasına daha səylə çalışmağa çağırmışdır.

Vergilər nazirinin müşaviri İlqar Əhmədov çıxışında Qərargahın və ərazi vergi idarələrinin əmək bazarına nəzarətin gücləndirilməsi sahəsində həyata keçirdiyi tədbirlərdən söz açmışdır. O, ayrı-ayrı ərazi vergi idarələrinin əmək münasibətlərinin rəsmiləşdirilməsi, işçi sayının dəqiq göstərilməsi, işəgötürənlərin işçilərlə əmək müqaviləsi imzalaması istiqamətində həyata keçirdikləri tədbirlərdən danışmış, statistik göstəriciləri diqqətə çatdırmışdır.

Müzakirələr zamanı nazirliyin müvafiq göstəriş və tövsiyələrini qənaətbəxş səviyyədə icra etməyən ərazi vergi idarələrinin rəislərinə xəbərdarlıq edilmiş, onlardan ən qısa zamanda fəaliyyətlərində ciddi dönüş yaratmaq tələb olunmuşdur.

Müzakirələrə yekun vuran Natiq Əmirov ərazi vergi idarələrinin rəhbərlərini əmək müqavilələrinin və əməkhaqlarının rəsmiləşdirilməsi, POS-terminalların quraşdırılması ilə bağlı tapşırıqlara daha məsuliyyətlə yanaşmağı, bu işləri qısa zamanda, qanunun tələblərinə uyğun şəkildə yekunlaşdırmağı tapşırmışdır.

S.MUSTAFAYEV